Respublika.- 2019.- 19 dekabr.- S.7

*Yeni nəşr:*

# "Hikmət yarpaqları"




**Azərbaycan Milli Elmlər Akademiyası Gəncə Bölməsinin Nizami Gəncəvi Mərkəzi tərəfindən nəşr edilən "Hikmət yarpaqları" kitabı maraqlı tədqiqat nümunəsi kimi yaradıcılığı çox az tədqiq olunan, Azərbaycan ədəbiyyatının istedadlı nümayəndələrindən biri, Nizami Gəncəvi soyuna mənsub şair Əli Şövqi Şeyxzamanlının həyat və yaradıcılığına həsr edilib.**

AMEA-nın Gəncə Bölməsindən AZƏRTAC-a bildiriblər ki, kitabda XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb-yaratmış şairin ədəbi irsindən nümunələr, o cümlədən əlyazmalar yer alıb. Əli Şövqi Nizami Gəncəviyə bağlı şairlərdəndir, soyadı XIX əsrin məşhur həkkaklarından olan Şeyx Zamanın adından götürülüb.

Kitabın transliterasiya və tərtibçisi, ön sözün müəllifi professor Xəlil Yusifli yazır ki, Əli Muxtar oğlu Şövqi özünün yazdığına görə, 1882-ci il martın sonu və ya aprelin əvvəllərində Gəncədə anadan olub. Əvvəlcə evdə, sonra isə məktəbdə təhsil alan Əli Şövqi türk, fars, rus dillərini öyrənib. Tolstoyun əsərlərini rus dilində, Firdovsinin "Şahnamə"sini farsca oxuya bilib, fars dilində gözəl şeirlər yazıb. İlk şeirlərini Şeyx imzası ilə yazan şairin sonradan Şövqi təxəllüsü götürməsi haqqında kitabda ətraflı məlumat verilir.

Professor Xəlil Yusifli qeyd edir ki, cəmiyyətdə baş verən ictimai-siyasi hadisələr Əli Şövqinin yaradıcılığında dərin iz buraxıb. 1905-ci, 1918-ci və 1920-ci illərin qanlı hadisələri onun şeirlərində öz geniş əksini tapıb. O vaxt ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımını dərin ürək ağrısı ilə qələmə alan şair rus və erməni fitnələrinin qurbanı olub doğma torpağından didərgin salınmış soydaşlarımızın faciəvi həyatını təsirli poetik dillə təsvir edib.

Əli Şövqi yaradıcılığına Məhəmməd Füzulinin təsiri xüsusilə nəzərə çarpır. Dahi şairin dövrün ağrı-acılarından bəhs edən "Olandan sor" rədifli qəzəlinə yazılan nəzirədə bu, özünü daha qabarıq göstərir. Füzuli yazır: "Gözü yaşlıların halın nə bilsin mərdümi-qafil, Kəvakib seyrini şəb ta səhər bidar olandan sor". Əli Şövqi yazır: "Bilirmi əğniyalar qış günü yoxsulların halın? Bu əhvalı özü qaçqın, evi talan olandan sor".

Professor xüsusi vurğulayır ki, Əli Şövqi qəlbi insanlıq, gözəllik, Vətən üçün döyünən istedadlı şair, irsi öyrənilməyə, əsərləri oxunmağa layiq bir sənətkardır.

Bu baxımdan AMEA Gəncə Bölməsinin nəşr etdirdiyi "Hikmət yarpaqları" kitabı şairin unudulmaqda olan zəngin ədəbi irsinin araşdırılıb-öyrənilməsinə sanballı töhfə olmaqla yanaşı, onun yaradıcılığını tədqiq edənlər üçün mötəbər mənbədir.

**AZƏRTAC**